İPƏK YOLU, No.4, 2024, səh.87-98
https://doi.org/10.30546/1810-911X.2024.4.119

# POSTMODERNİZM VƏ ÇAĞDAŞ AZƏRBAYCAN NƏSRİ: MİLLİ POSTMODERNİZMİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ (Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanı nümunəsində)

**Səbinə Ağababayeva**

Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
e-mail: sagababayeva@list.ru

**Xülasə.** Azərbaycan ədəbiyyatında postmodernizmin mahiyyətinə dəlalət edən ilk ədəbi-bədii nümunələrin yaradıcısı kimi Kamal Abdulla müasir Azərbaycan ədəbiyyatına tamamilə yeni bir nəfəs gətirmişdir. Azərbaycan postmodern nəsrində Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanı özünəməxsusluğu ilə seçilir. "Sehrbazlar dərəsi" romanı süjet xətti, olduqca maraqlı, orijinal mövzusu ilə diqqəti cəlb edir. Tarix, mədəniyyət, dinin vəhdət təşkil etdiyi roman nağıl, dastan, əfsanə, eyni zamanda mifoloji elementləri özündə birləşdirir. Məqalədə milli postmodernizmin səciyyəvi xüsusiyyətləri Kamal Abdullanın "Sehrbazlar dərəsi" roman nümunəsində tədqiq edilir.

**Açar sözlər:** Postmodernizm, çağdaş nəsr, ənənəvi dəyərlər, yeni yanaşma.

## POSTMODERNISM AND CONTEMPORARY AZERBAIJAN PROSE: CHARACTERISTICS OF NATIONAL POSTMODERNISM

**Sabina Aghababayeva**
*Baku Slavic University, Baku, Azerbaijan*

**Abstract.** Kamal Abdulla, as the creator of the first literary and artistic examples indicating the essence of postmodernism in Azerbaijani literature, has breathed new life into contemporary Azerbaijani literature. Kamal Abdulla's novel "Valley of the Wizards" stands out for its uniqueness in Azerbaijani postmodern prose. "Valley of the Wizards" attracts attention with its plot, highly intriguing and original theme. The novel, which unites history, culture and religion, also incorporates fairy tales, epics, legends and mythological elements. The article examines the characteristic features of national postmodernism through the analysis of Kamal Abdulla's novel "Valley of the Wizards".
**Keywords:** Postmodernism, modern prose, traditional values, new approach.

## ПОСТМОДЕРНИЗМ И СОВРЕМЕННАЯ АЗЕРБАЙДЖАНСКАЯ ПРОЗА: ХАРАКТЕРИСТИКА НАЦИОНАЛЬНОГО ПОСТМОДЕРНИЗМА

**Сабина Агабабаева**
*Бакинский Славянский Университет, Баку, Азербайджан*

**Резюме.** Камал Абдулла, как создатель первых литературных и художественных произведений, отражающих суть постмодернизма в азербайджанской литературе, вдохнул новую жизнь в современную азербайджанскую литературу. Роман Кямала Абдуллы "Долина волшебников" выделяется своей уникальностью в азербайджанской постмодернистской прозе. "Долина волшебников" привлекает внимание своим сюжетом, чрезвычайно захватывающей и оригинальной темой. Роман, который объединяет историю, культуру и религию, также включает в себя сказки, эпосы, легенды и мифологические элементы. В статье исследуются характерные особенности национального постмодернизма через анализ романа Кямала Абдуллы "Долина волшебников".
**Ключевые слова:** Постмодернизм, современная проза, традиционные ценности, новый подход.

## 1. Giriş

Postmodernizm bəşər tarixində bir-birini ardıcıl olaraq əvəz edən mədəni epoxaların ən sonuncusudur. Çağdaş humanitar fikrin bütün sahələrinin diqqət mərkəzində saxladığı postmodernizm mürəkkəb bir anlayışdır. Belə ki, bu anlamı hər hansı bir sahəyə aid etmək, yalnız bir elm sahəsinə bağlamaq qeyri-mümkündür. Bunun əsas səbəbi postmodernizmin müəyyən zaman kəsiyində eyni anda müxtəlif elm sahələrində müşahidə olunmasıdır.

Postmodern dönəmin başlanması ilə elm, mədəniyyət, ədəbiyyat, tarix, kino, memarlıq, dəb və s. kimi sahələr əsaslı dəyişikliklərə məruz qalmışdır. Demək olar ki, XX əsrin ortalarından etibarən humanitar fikrin müxtəlif sahələrində nəzərəçarpacaq transformasiyalara səbəb olan postmodernizm elmi-nəzəri müzakirələrin əsas mövzusuna çevrilmişdir. Modernizmin keçmişdən tamamilə ayrılıb yenini qurmaq iddialarından fərqli olaraq postmodernizm bəzən istehza, bəzən tənqid, bəzən də həsrətlə tarixi keçmişə, ənənə və dəyərlərə bir növ “qucaq açır”. Eləcə də modernizmin elitarlığını birmənalı şəkildə qəbul etməyən postmodernizm kütlənin zövqünə əsaslanan populist sənətin tərəfdarı kimi çıxış edir. Postmodernizm reallığı, gerçəkliyi tamamilə yeni baxış bucağından dəyərləndirir, istinad edilməsi mümkün olan vahid nöqtənin, vahid mərkəzin olmadığına inam aşılayır.

Dünya ədəbiyyat və ədəbiyyatşünaslığında olduğu kimi, postmodernizm Azərbaycan ədəbiyyatında da dövrün dəyişikliklərinə əsasən, təşəkkül tapmışdır. Postmodernizmin ədəbiyyatımızda müşahidə olunması ilə bədii əsərə münasibət dəyişmiş, adət etdiyimiz, ənənəvi ədəbiyyatın süjet və kompozisiyası, obrazları tamamilə yeni forma və məzmun qazanmışdır. Bir növ bədii ədəbiyyat zamanın dəyişən nizamına uyğunlaşdırılmışdır. Beləliklə də müasir dönəmdəki dəyişikliklər, eləcə də yeni düşüncə tərzi çağdaş ədəbiyyatımızda da bir sıra köklü dəyişikliklərə səbəb olmuşdur. Bütün bunlar da müasir Azərbaycan ədəbiyyatında postmodernizmin formalaşması üçün bir növ zəmin yaratmışdır.

Təzahür etdiyi vaxtdan etibarən ətrafında mübahisələrin səngiməndiyi postmodernizm yerli ədəbi mühitdə birmənalı qarşılanmamışdır. “Müasir Azərbaycan ədəbi nəzəri fikrində postmodernizmə münasibət birmənalı deyil. Bəzi mütəxəssislər və yazarlar bu cərəyanın müsbət yönümlü olmasını qeyd edərkən, digər bir qrup isə onun anlaşılmaz, sənətdən uzaq “əllaməlikdən” ibarət, xalqın milli-mənəvi dəyərlərinə qarşı yönəlmiş təxribat xarakterli nəzəriyyə olduğunu qeyd edirlər” [8, s.95]. Postmodernizmin başlanğıc mərhələdə, əsasən, tənqidi münasibətə məruz qalmasının əsas səbəbi birbaşa olaraq bu fenomenin əsas xüsusiyyətləri ilə bağlı idi. Belə ki, postmodernizmin qaydalara tabe olmayan, bütün çərçivələrdən azad, tarixi keçmişə və ənənələrə fərqli yanaşması birmənalı olaraq “bəşəriyyəti fəlakətə sürüklədiyi” iddialarına əsas verirdi. Bu mənada postmodernizmin özünü göstərdiyi bütün incəsənət sahələrinin də gələcəyinə şübhə ilə yanaşılmağa başlandı. Postmodernizmin özü ilə bərabər gətirdiyi yeniliyi qəbul edə bilməyənlər bu fenomenin bəşəriyyət üçün heç də uğurlu olmayacağı fikrini irəli sürürdülər. Ədəbiyyatda da postmodernizm ənənə və müasirlik tərəfdarlarının mübarizəsindən “yaxasını qurtara bilməmişdir”. Məhz bu səbəbdən Qərbdə

olduğu kimi, Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığında da ilkin mərhələdə postmodernizm daha çox tənqid edilirdi.

Azərbaycan ədəbiyyatında postmodern üslubda yazılan ilk əsərlərə nümunələr gətirən Salidə Şərifova yazır: "Kamal Abdullanın "Yarımçıq Əlyazma" romanı, Həmid Herisçinin "Nekroloq", Kəramət Böyükçölün "Çöl", İlqar Fəhminin "Qarğa Yuvası", Əli Əkbərin "Amneziya", Pərviz Cəbrayılın "Yad Dildə", Aqşin Yeniseyin "Göləqarğısancan", Nərmin Kamalın "Aç, mənəm" və digər yazarların qələmə almış olduqları əsərlər postmodern üslubda yazılmış əsərlər kimi diqqəti cəlb edir [10, s.20]. Ənənəvi ədəbiyyatın sərhədlərini alt-üst edən, milli ədəbiyyatımıza yeni baxış, müəllif-oxucu münasibətlərinə, bədii əsərə yeni yanaşma nümayiş etdirən bu əsərlər həqiqətən də işıq üzü gördükləri ilk dönəmlərdə ədəbiyyatşünas və tənqidçilərin etirazları ilə qarşılanmışdır. Çünki postmodernizm qeyri-müəyyən bir məfhum olduğu üçün həmin üslubdakı əsərlərin də mənasız, xaotik olduğu fikri bu etirazlara bir növ haqq qazandırırdı. Lakin postmodernizmlə bağlı tədqiqatlar genişləndikcə, bu üslubdakı əsərlər təhlil olunduqca demək olar ki, postmodernizmin Azərbaycan ədəbiyyatındakı mövqeyinə, yerli ədəbi mühitə gətirdiyi yeniliklərə münasibət bir qədər dəyişdi. Doğrudur, hələ də postmodernizmi anlamayanlar, onu qəbul etməyənlər kifayət qədərdir. Bunun da əsas səbəbini hər mənasız, xaotik mətnləri postmodern mətn, postmodern ədəbiyyat nümunəsi kimi təqdim etməklə əlaqələndirmək olar. Lakin bununla belə qeyd etmək mütləqdir ki, postmodern nəsrdə xaotiklik, nizamsızlıq özündə müəyyən bir mənanı, məzmunu ehtiva edir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, postmodernizm milli ədəbiyyatımızda hələ təzə-təzə kök salmağa başladığı dövrlərdə, əsasən, ümumi ilkin xüsusiyyətləri, Qərbə məxsus, Qərbdən gələn cəhətləri ilə təhlil və tədqiq olunurdu. Onun yerli ədəbi mühitə gətirdiyi yeniliklər, ədəbiyyatımızın gələcəyi üçün nələr vəd etməsi problemi də müzakirələrin əsasını təşkil edirdi. Postmodernizmin bizim yazıçıların qələmində hansı keyfiyyətlər qazanmasına, Azərbaycan postmodernizminin hansı yeni xüsusiyyətlər əxz etməsinə aydınlıq gətirmək isə bir növ müzakirələrdə, mübahisələrdə diqqətdən kənarda qalırdı. Artıq qeyd etdiyimiz kimi, ayrı-ayrı yazıçıların postmodern üslubda yazıldığı iddia edilən konkret əsərləri tədqiqata cəlb olunanda Qərb postmodernizminin əslində milli ədəbiyyatımızda Şərqə məxsus elementlərlə fərqlilik qazandığının şahidi oluruq. Qərb postmodernizminin ümumi xüsusiyyətlərini özündə əks etdirsə də, Azərbaycan postmodern nəsri özünəməxsus elementləri, fəlsəfi-estetik kateqoriyaları ilə orijinal keyfiyyətləri özündə cəmləşdirir.

## 2. Azərbaycan postmodern nəsrində Kamal Abdulla dəst-xətti

Qeyd etdiyimiz kimi Azərbaycan ədəbiyyatında da birmənalı qarşılanmayan, əsasən, tənqidlərə məruz qalan postmodernizm bu üslubda yazılan əsərlərin təhlilindən sonra öz real qiymətini almağa başlayır. Postmodern üslubda yazılmış konkret ədəbi-bədii nümunələrin nəzəri təhlili bu ədəbiyyatın imkanlarını düzgün qiymətləndirmək baxımından xüsusi əhəmiyyətə malikdir. Məhz buna görə də Azərbaycan postmodern nəsrində Kamal Abdulla yaradıcılığını, Kamal Abdulla dəst-xəttini xüsusilə vurğulamaq lazımdır. Elnarə Qaragözova

K. Abdullanın "Yarımçıq əlyazma" və "Sehrbazlar dərəsi" romanlarından sonra Azərbaycan ədəbiyyatşünaslığında postmodernizmin dərin qatlarına marağın başlandığını qeyd edir. Təsadüfi deyildir ki, akademik İsa Həbibbəyli Kamal Abdullanı Azərbaycan postmodern ədəbiyyatının yaradıcısı kimi qiymətləndirir. "Məhz Kamal yaradıcılığında postmodern estetika daha qabarıq və cəlbedici şəkildə təzahür edir. Bu səbəbdən Azərbaycan postmodern ədəbiyyatında Kamal Abdulla mətnləri və Kamal Abdulla xətti aparıcıdır" [9, s.8]. K. Abdulla qələminin məhsulları, K. Abdulla əsərləri postmodern ədəbiyyatı mənasız, qarmaqarışıq hesab edənlərin mülahizələrini alt-üst etmiş, qeyri-müəyyənliyin özündə bir məna, dağınıqlığın özündə bir nizamın olduğunu açıq-aydın nümayiş etdirmişdir.

Azərbaycan ədəbiyyatında postmodernizmin mahiyyətinə dəlalət edən ilk ədəbi-bədii nümunələrin yaradıcısı kimi Kamal Abdulla müasir Azərbaycan ədəbiyyatına tamamilə yeni bir nəfəs gətirmişdir. Yazıçının müsahibələrinin birində səsləndirdiyi fikirlər olduqca maraqlıdır: "....Əlbəttə ki, mənim mətnlərimi nağıl kimi oxumaq mümkün deyil. Nəfəs dərməli, düşünməlisən, hətta bəzən lüğətlərə də baxmaq istəyərsən. Mənə nə qədər adam dedi ki, "Yarımçıq Əlyazma"nı oxuyandan sonra gedib "Kitabi-Dədə Qorqud" dastanını bir daha oxuyublar ki, baxıb görsünlər romanda dastan nə qədər dəyişdirilmiş şəkildə əksini tapıb... Digər tərəfdən, Türkiyədə bir ədəbiyyatşünas alim romanı oxuyandan sonra elmi bir məqalə yazmışdı ki, Kamal Abdulla Dədə Qorqud dastanının yeni bir əlyazmasını tapıb nəşr etdirib" [2]. Dili, təhkiyə üsulu, mifik elementləri, mistik hadisələri ilə orijinal olan Kamal Abdulla mətnləri həqiqətən də oxucudan peşəkarlıq, geniş dünyagörüşü tələb edir. Ədibin əsərləri bir daha göstərir ki, postmodern ədəbiyyat intellektual oxucu kütləsinə yönəlmişdir. Maraqlıdır ki, Kamal Abdulla özünü hansısa bir ədəbi cərəyana mənsub yazıçı kimi təqdim etməyi o qədər də önəmli hesab etmir. Yazıçıya ünvanlanan "Sizi postmodernist hesab edirlər. Bəs özünüz necə? Siz postmodernist yazıçısınız?" sualına verdiyi cavab fikrimizi təsdiq edir: "- Mən bilmirəm. Nə buna iddiam var, nə də məqsəd kimi qarşıma qoymuşam. Bilirəm ki, ağıllı adamlar üçün məni oxumaq ən azından maraqlıdır - bu bəsdir. Mən modernistəm, yaxud postmodernistəm - bunun bir önəmi varmı mənim üçün? Yoxdur. Əvvəllər başqa cür düşünürdüm. İndi elə düşünmürəm" [2]. Bununla belə Kamal Abdullanın əsərlərinin ənənəvidən fərqli süjet xətti, zamanın xronoloji ardıcıllığının pozulması, zamanda qırılmalar, qeyri-müəyyən bədii məkan, uydurma gerçəklik və s. elementlər onun mətnlərini postmodern ədəbiyyat nümunəsi kimi dəyərləndirməyə əsas verir. Ədib birmənalı olaraq Azərbaycan postmodernizminin yaradıcısı hesab edilir. Xüsusilə də yazıçının "Yarımçıq Əlyazma" romanı Azərbaycan ədəbiyyatında postmodern üslubda yazılmış ilk əsərlərdən biri kimi qiymətləndirilir.

Asif Hacılı Kamal Abdulla yaradıcılığının özünəməxsusluğuna həsr etdiyi "Kamal Abdulla: Seçimin morfologiyası" kitabında qeyd edir: ""Yarımçıq Əlyazma" Azərbaycan ədəbiyyatında mifə, eposa ve tarixə intellektual-fəlsəfi bədii münasibətin ilk konseptual nümunəsidir, ilk postmodernist təfsir təcrübəsidir..." [5, s.54]. Postmodernist yazıçı olub-olmaması ilə bağlı ünvanlanan sualları qəti şəkildə "bəli" cavabı ilə təsdiqləməyən ədib

"posmodernist yazıçı olub-olmadığımı bilmirəm. Deyə bilmərəm ki, onun bütün kriteriyalarında varam. Postmodernizmin bir çox kriteriyaları var. Onlardan biri də mətni dəyişmək, sözü fərqli təqdim etməkdir. Mətnlə oynamaq kriteriyasında varam. Amma postmodernizmin mentalitetimizə zidd olan kriteriyalarında yoxam" [6]. Bu baxımdan əminliklə demək olar ki, öz yaradıcılığı ilə müasir Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirən, ənənəvi mövzu və problemlərə yeni baxış sərgiləyən Kamal Abdulla milli dəyərlərlə, keçmişlə bağlılığını heç zaman itirmir. Ədibin özünün də vurğuladığı kimi postmodernizmin mentalitetimizə, milli dəyərlərimizə zidd olan tərəfləri onun əsərlərində öz əksini tapmır. Folklor və mifologiyanı əsas qaynaq kimi seçən ədib onları müasir üslubla sintez edərək orijinal əsərlər yaratmağa müvəffəq olur. Vərdiş etdiyimiz, alışdığımız hadisələr, obrazlar, ilk baxışda adi, sadə görünən əhvalatlar Kamal Abdullanın bilik və təxəyyül aləmində fərqli qavrayışlarla oxuculara çatdırılır. Ədibin nağılvari təhkiyəsi onun əsərlərinə xüsusi bir cazibə bəxş edir.

Professor Asif Hacılı Kamal Abdullanın yaradıcılığını bütöv bir Mətn hesab edir: "Kamal Abdullanın ədəbi yaradıcılığı müxtəlif janrlı əsərlərdən (şeir, hekayə, esse, roman, pyes, tərcümə) ibarət zəngin bir mənzərə yaratsa da, mənim üçün elmi araşdırmalarını da (hətta ictimai-təşkilati fəaliyyətini) daxil etdiyim bütöv bir Mətndir. Dünyanı (şüuru) bir mətn kimi qavrayan poststrukturalistsayaq yanaşsaq, Kamal Abdullanın yaratdığı bu Mətn özündə yetərli işarəvi aləm olmaqla yanaşı, siqləti ilə geniş mənada milli-mədəni kontekstin ayrılmaz və aktual hissəsinə çevrilmişdir" [5, s.3]. Necə ki, postmodernizmdə ümumi mədəniyyətin ayrılmaz bir hissəsi olan, əvvəlki mətnləri və onların hissələrini özündə birləşdirən hər hansı bir mətn istisnasız olaraq yalnız bir mətn kimi qavranılır, başa düşülür, eləcə də Kamal Abdullanın bütün yaradıcılığı bir-birilə bağlı olan ümumi bir Mətn kimi qəbul edilir. Hər nə qədər də ədib postmodernist yazıçı olduğunu dilə gətirməsə də onun yaradıcılığının, əsərlərinin tədqiqi və təhlili bunun tam əksini sübut edir. Kamal Abdullanın yaradıcılığında diqqəti cəlb edən ən mühüm cəhət ondan ibarətdir ki, eyni hadisələr, oxşar məkanlar, eləcə də obrazlar bu və ya digər şəkildə ədibin əsərlərində təkrarlanır. Bu amil də onun əsərlərinin bir-birilə bağlı olan ümumi bir Mətn kimi başa düşülməsinə rəvac verir.

Araz Əhmədoğlu tərəfindən 2017-ci ildə Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanı haqqında "Sehrbazlar dərəsi İç-içə sirlər dünyası" monoqrafiyasında bədii ədəbiyyatın bölgüsü haqqında olduqca maraqlı fikirlər yazılmışdır: "....nəsr ədəbiyyatı iki geniş kateqoriyaya ayırmaq olar: qaçış ədəbiyyatı və yorumlayıcı ədəbiyyat. Qaçış Ədəbiyyatı odur ki, yalnız ləzzət və əyləncə üçün yazılır - kömək etsin vaxt qəbul olunan yol ilə keçsin. Yorumlayıcı Ədəbiyyat, bizim yaşama görə agahlığımızı genişlədib dərinlədib itilətmək üçün yazılır. Qaçış ədəbiyyatı bizi gerçək dünyadan uzaqladır: bizi qadir edir ötəri olaraq sorunlarımızı unudaq. Yorumlayıcı ədəbiyyat isə təsəvvür gücü ilə bizi gerçək dünyanın dərinliklərinə aparır: bizi qadir edir sorunlarımızı başa düşək. Qaçış ədəbiyyatının hədəfi yalnız ləzzətdir. Yorumlayıcı ədəbiyyatın hədəfi ləzzət və başa düşməkdir" [4, s.33-34]. Tədqiqatçı Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanını "nəsr ədəbiyyatımızın, bizcə, çağdaş şah əsərlərindən olan, yorumlayıcı dünya ədəbiyyatının seçilmiş əsərləri ilə tam ləyaqətlə çiyin-çiyinə yürüyüb şəst

ilə duran" [4, s.39] şəklində xarakterizə edir. Bəli, ədibin nəinki "Sehrbazlar dərəsi" romanı, eləcə də digər əsərləri dərin fəlsəfi məzmunu, ideya-bədii xüsusiyyətləri, irreal məzmunun fonunda əslində gerçək dünyanın dərinlikləri barədə oxucunu düşündürən "yorumlayıcı ədəbiyyat" nümunələridir. Hansı ki, hədəfi oxucunun həm bədii zövqünü oxşamaq, həm də onu düşünməyə sövq etməkdir.

Müasir Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Kamal Abdulla ədəbi və mədəni sahədəki fəaliyyətləri ilə hər zaman diqqət mərkəzində olmuşdur. Xalq yazıçısı, əməkdar elm xadimi Kamal Abdulla bədii yaradıcılığı ilə çağdaş Azərbaycan ədəbiyyatını yeni məzmun, forma və üslub çalarları ilə zənginləşdirmişdir. "Folknerin məşhur sözüdür, deyir ki, yazıçı gördüyü, tanıdığı adamların surətini yaradırsa, bu, ədəbiyyatın böhranıdır. İlk baxışda bizim üçün qəribə görünsə də, bu fikirdə böyük bir həqiqət var. Sənətkar üçün əsas olan ideyadır. Tanıdığın adamlar, şahidi olduğun hadisələr yox, məhz ideya. Məhz ideya olandan sonra o ideyanı obrazlara paylamaq, onlar arasında bölüşdürmək, obrazlar vasitəsilə onun həllinə çalışmaq mümkündür. Obrazlardan ideyaya yox, ideyadan obrazlara - əsl ədəbiyyatın yolu budur" [1, s.72]. K. Abdullanın "300 azərbaycanlı (ədəbi-bədii esselər)" kitabından yazıçının qələmə aldığı bu fikirləri qeyd etməyimiz əbəs yerə deyildir. Belə ki, ideyanı əsas götürən Kamal Abdullanın yaradıcılığına nəzər saldıqda, onun əsərlərini təhlil etdikdə yazıçının geniş dünyagörüşünün, zəngin təxəyyülünün şahidi oluruq. Məhz zəngin təxəyyülü nəticəsində K. Abdulla qeyri-adi hadisələri təbii, inandırıcı təsvir etməklə oxucusunu inandırmağı bacarır. K. Abdulla qələmində gözlənilməz mətləblərin fərqli təqdimatları orijinal, bənzərsiz sənət nümunələrinin yaranmasına səbəb olur. Tarixi, dini, mifoloji, mistik, psixoloji, fəlsəfi mövzular Kamal Abdulla əsərlərinin əsasını təşkil edir.

Yaradıcılığı ilə müasir Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirən, ənənəvi mövzu və problemlərə fərqli baxış sərgiləyən Kamal Abdulla milli dəyərlərlə, keçmişlə bağlılığını heç zaman itirmir. Folklor və mifologiyanı əsas qaynaq kimi seçən ədib onları müasir üslubla sintez edərək orijinal əsərlər yaratmağa müvəffəq olur. Vərdiş etdiyimiz, alışdığımız hadisələr, obrazlar, ilk baxışda adi, sadə görünən əhvalatlar Kamal Abdullanın bilik və təxəyyül aləmində fərqli qavrayışlarla oxuculara çatdırılır. Ədibin nağılvari təhkiyəsi onun əsərlərinə xüsusi bir cazibə bəxş edir.

## 3. "Sehrbazlar dərəsi" romanı çağdaş nəsr nümunəsi kimi: Romanda postmodern elementlər

Azərbaycan postmodern nəsrində Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanı özünəməxsusluğu ilə seçilir. Artıq qeyd etdiyimiz kimi, Azərbaycan ədəbiyyatında postmodernizmin alt qatlarına marağın yaranmasına səbəb olan əsərlərdən biri də məhz "Sehrbazlar dərəsi" romanıdır. "Sehrbazlar dərəsi" romanı ilk dəfə 2006-cı ildə işıq üzü görmüşdür. Salidə Şərifovanın "Klassiklər və müasirlər söz müstəvisində" monoqrafiyasında romanla bağlı qeydləri diqqəti cəlb edir: "Azərbaycan yazıçısı Kamal Abdullanın "Sehrbazlar

dərəsi" (2006) romanında sufi fəlsəfi ənənəsinin müəllif ideyasına tabeliyini görürük. "Sehrbazlar dərəsi" - bu əsərdə dünyəvi ehtirasların heçliyi, bütövlükdə natamam cəmiyyətin və insanın mənasızlığı problemi qaldırılır" [12, s.241]. Kamal Abdullanın digər uğurlu qələm təcrübələri kimi "Sehrbazlar dərəsi" romanı da yazıçıya böyük uğur gətirmiş, müxtəlif dillərə tərcümə edilərək çap olunmuşdur.

Qeyd etmək mütləqdir ki, mətnlərarası əlaqə Kamal Abdulla yaradıcılığında sıx şəkildə özünü göstərir. Əvvəlki əsərlərindəki hadisələr, əhvalatlar, obrazlar ədibin sonrakı əsərlərində yeni forma və məna qazanır. Bu baxımdan tədqiqat işinin predmeti kimi seçdiyimiz "Sehrbazlar dərəsi" romanının adını daşıyan, romandakı bədii-fəlsəfi məna ilə səsləşən "Sehrbazlar dərəsi" şeirini, "Qərar hekayəsi"ni, "Elə bir qorxa-qorxa" pyesini xüsusi olaraq vurğulamaq lazımdır. Cəllad Məmmədqulunun həyat hekayəsi üzərində qurulan "Qərar" hekayəsi romandan on il əvvəl - 1996-cı ildə nəşr olunmuşdur. Hekayənin motivləri əsasında ədib 1997-ci ildə "Elə bil qorxa-qorxa" pyesini yazmışdır. Hekayə, pyes və romandakı hadisələr bir-birinin davamı təsirini bağışlayır. "Qərar" hekayəsini və "Elə bil qorxa-qorxa" pyesini nəzərdən keçirdikdə romanın süjetinin yazıçının daha əvvəllər yazdığı mətnlər əsasında qurulduğu aydın olur. Ədibin əsərləri arasındakı bu keçid postmodernizmin mətnlərarası əlaqələrə əsaslanan yeni mənalar axtarışının göstəricisidir. Maraqlıdır ki, Kamal Abdullanın yaradıcılığında tez-tez öz mətnlərinə yenidən müraciət özünü göstərir. "Qərar" hekayəsi Cəllad Məmmədqulunun qərarının faciə ilə nəticələnən əhvalatı üzərində qurulmuşdur. "Elə bil qorxa-qorxa" pyesinin süjetini isə Karvanbaşının ruhla görüşü səhnəsi təşkil edir. Hər iki əhvalat romanın süjetinə daxil edilmiş, olduqca maraqlı, həyəcanlandırıcı əhvalat şəklində öz əksini tapmışdır. "Sehrbazlar dərəsi" romanını hekayə və pyesin bir növ yekunu kimi dəyərləndirmək olar. "Elə bil qorxa-qorxa" pyesindəki hadisə - karvanbaşı ilə ruhun görüşü romandakı hadisələrin indiki zamanını, cəllad Məmmədqulunun hekayədəki əhvalatı isə romanda keçmiş zamana qayıtmaqla öz əksini tapır. Romandan daha əvvəl qələmə alınan bu bədii nümunələr bir daha göstərir ki, ədibin geniş təxəyyülünün məhsulu olan bəzi uydurmalar müxtəlif mətnlərdə fərqli kontekstlərdə təkrar-təkrar işlənmişdir. Yazıçı "Qərar" hekayəsini və "Elə bil qorxa-qorxa" pyesini bütövlükdə romanın süjetinə daxil etmişdir. "Sehrbazlar dərəsi" romanında oxucu cəllad Məmmədqulunun karvanbaşı Allahverdinin atası olduğu anlayır. Başdan-başa cəllad Məmmədqulunun həyat hekayəsi üzərində qurulan "Qərar" hekayəsində isə sonda onun oğlunun dünyaya gəlməsi göstərilir. Hekayəni oxuyarkən oxucu üçün bir növ yarımçıq və anlaşılmaz qalan körpə uşağın taleyi artıq romanda aydınlaşır. Onu da qeyd etmək lazımdır ki, romandakı bəzi xarakterlərin, məkanların, anlayışların adını yazıçının digər əsərlərində də görürük. Romanın əsas qəhrəmanlarından olan Səyyah Sehrbaz - Hacı Mir Həsən ağa Səyyah ədibin eyniadlı - "Hacı Mir Həsən ağa Səyyah" hekayəsinin də baş qəhrəmanıdır. Bu hekayədə də məkan olaraq Sehrbazlar dərəsinin adına, zaman olaraq təkcənəlik vaxtına rast gəlirik. "Hacı Mir Həsən ağa Səyyah" hekayəsində ədibin "Sirlərin sərgüzəşti", "Unutmağa kimsə yox" romanlarından da motivlərə rast gəlmək mümkündür. Ədibin "Sehrbazlar dərəsi" adlı şeirində

qarmaqarışıqlıq və xaosun hökm sürdüyü, nizamı pozulmuş dünyadan qurtulmaq istəyi özünü açıq-aydın göstərir. Şeir demək olar ki, romanın ümumi bədii-fəlsəfi məzmunu ilə səsləşir.

"Sehrbazlar dərəsi" romanı süjet xətti, olduqca maraqlı, orijinal mövzusu ilə diqqəti cəlb edir. Tarix, mədəniyyət, dinin vəhdət təşkil etdiyi roman nağıl, dastan, əfsanə, eyni zamanda mifoloji elementləri özündə birləşdirir. "Roman bir çox qatlara sahibdir: Folklor, utopiya, magik realizm, postmodernizm, klassika kimi bir çox xəttin paralelliyindən yaranan azərbaycansayağı postmodernist əsər. O əsər ki, hansı dilə tərcümə olunmasından asılı olmayaraq öz milli genetik kodlarını elan edir" [7, s.132]. Zaman və məkan quruluşu baxımından da fərqlənən roman postmodern nəsrin əsas elementlərini özündə ehtiva edir. Romanda klassik ədəbi nümunələrdəki ardıcıllığın pozulduğu aydın müşahidə olunur. Belə ki, bir-birilə əlaqəsi olmayan bir neçə zaman diliminin bir-birini əvəzləməsi, eləcə də qeyri-adi məkan quruluşu əsərin əsas özəlliyini təşkil edir.

Kamal Abdullanın fəlsəfi düşüncə və təxəyyülünün məhsulu olan roman ilk sətirlərindən oxucunu cəlb edir. "Romanın adından başlayaraq insan müasir həyatdan uzaq bir dünyaya qədəm qoymağa başlayır. Səhifələr irəlilədikcə mistiklərin, sehrbazların qeyri-adi hadisələrlə bəzədilmiş hekayələri addım-addım inkişaf edir" [13, s.220]. Əsərdə real dünya hadisələri, obrazları ilə xəyal dünyasının, yazıçı təxəyyülünün məhsulu olan qəhrəman və hadisələr  təbii, canlı təsvir olunmuşdur. Romanda reallıqla hiperreallıq elə çulğalaşmışdır ki, onların sərhəddini müəyyən etmək qəlizdir. Bu da yazıçı istedadının, peşəkarlığının göstəricisidir.

"Sehrbazlar dərəsi" romanının mövzusu, əsərdəki hadisələr, zaman, əsərin əsas məkanı - "Sehrbazlar dərəsi"nin qeyri-adiliyi, həmin məkandakı insanlar - sehrbazlar, ölülərlə dirilərin bir-birilə təması, bənzəri olmayan baxış bucağının, hüdudsuz təxəyyülün məhsuludur. Bu təxəyyülün uydurması o qədər inandırıcıdır ki, əsərdəki hadisələrin reallığına oxucu şübhə ilə yanaşmır.

Postmodern ədəbiyyatın  əsas xüsusiyyətlərindən biri yazarın mətndə konkret olaraq hər hansı bir mövzu üzərində cəmləşməyə can atmamasıdır. Vahid reallığı şübhə altına alan postmodernizmdə mətnin yalnız bir mövzu üzərində qurulması gerçəkliyə, eləcə də ideala olan inam deməkdir. Məhz bu səbəbdən də postmodernistlər mətndə yalnız bir mövzunu təsvir etmirlər. Azərbaycan ədəbiyyatında postmodernizmin ən gözəl nümunələrindən hesab edilən "Sehrbazlar dərəsi" romanında da bu problem özünü aydın şəkildə göstərir. Belə ki, əsərin əsasında müxtəlif əhvalatlar dayanır: Karvanbaşının, cəllad Məmmədqulunun, Ağ Dərvişin, eləcə də sarvan Qədirqulunun, Pərnisənin əhvalatları. Maraqlıdır ki, bir-birini əvəz edən həyat hekayələri, gözlənilmədən dəyişən zaman kəsiyi oxucuda çaşqınlıq yaratmır. Hadisələrin ardıcıllığının pozulması əsərin məzmununa təsir etmir.

"Sehrbazlar dərəsi" romanı olduqca mürəkkəb süjetə malikdir. İlk baxışda anidən dəyişən əhvalatlar arasında əlaqəni müəyyən etmək çətindir. Əsərdəki hadisələr arasında bir qopuqluq, qırıqlıq müşahidə olunur. Ümumiyyətlə, qeyd etmək mütləqdir ki, postmodern

yazıçının şüurlu şəkildə süjeti parçalaması, hadisələr arasında qırıqlıq yaratması əsərin ənənəvi - müəyyən məntiq və nizama uyğun hadisələrin ardıcıl inkişafı ideyasını "məhv etmək" istəyinə əsaslanır. Hər bir şeyin qarmaqarışıq, xaotik olduğu dünyada ədəbiyyata da ilk növbədə bu missiya yüklənir - klassik, ənənəvi süjet xəttindən imtina. Bu amil "Sehrbazlar dərəsi" romanının da əsasını təşkil edir. Əsər ənənəvi süjet xəttindən məhrumdur. Adət etdiyimiz ekspozisiya, zavyazka, kulminasiya, razvyazka, finalı ardıcıllıqla izləmək qeyri-mümkündür. "Sehrbazlar dərəsi" romanını postmodern nəsr nümunəsi kimi gözdən keçirdikdə ilk növbədə bir yox, çoxsaylı süjetlərin olduğu aydın olur. Mürəkkəb quruluşlu əsərdə bu çoxsaylı süjetlər arasında ilk baxışda zəif üzvi bağın olduğu düşünülür. Yazıçı əsəri qısa parçalar, fəsillər şəklində qurmuşdur. Oxucu əvvəldən sona qədər bir hadisəni deyil, eyni əsər daxilində şaxələnən bir neçə hadisəni izləməlidir. "Sehrbazlar dərəsi" romanının süjetindəki mürəkkəblik və hadisələr arasındakı keçidlər, qopuqluq postmodern mətnlərin əsas müəyyənedici elementləridir. Əslində romandakı hadisələr arasındakı nizamsızlıq - karvanbaşının əhvalatının kəsilərək cəllad Məmmədqulunun əhvalatına keçid, bunlarla paralel olaraq Ağ Dərvişin əhvalatı - əsəri heç də xaotik, mənasız kimi dəyərləndirməyə əsas vermir. Çünki yazıçı bu keçidləri o qədər ustalıqla edir ki, nizamsızlıq hiss olunmur. Peşəkar, intellektual oxucu təhkiyə prosesində polifoniya arxasındakı mənanı müəyyən edə bilir.

Yazıçı təxəyyülünün məhsulu olan Sehrbazlar dərəsi özündə bir sıra mühüm dəyərləri cəmləşdirir. Utopik, eyni zamanda metafizik məkan xüsusiyyətlərini ehtiva edən Sehrbazlar dərəsi romanda əsas, özək məkandır. "Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanında əsərin adından göründüyü kimi dərə bir kollektiv obraz kimi canlandırılır: Sehrbazların dərəsi. Bu dərəyə bir çox insanların can atması əsərdə əksini tapmışdır. Bu dərə nicat, ümid yeri kimi də təqdim olunur" [11, s.56-57]. Bununla yanaşı əsərdə simvolik məna daşıyan yerlər də vardır: Görükməz təpə, Düzəngah, Günortac, Selləmə kəndi, Çeşmə yolu, Kəhrizli bağça və s. Sehrbazlar dərəsi "İlan gədiyinin qurtaracağında Görükməz Təpə deyilən təpənin ətəyindən birbaşa üzü çökəyə açılırdı" [3, s.15]. Dərənin sakinləri demək olar ki, xarici aləmdən, xarici dünyanın reallıqlarından təcrid olunmuş şəkildə burada yaşayırdılar. Dərənin adı, bu adın dərəyə verilməsinin səbəbi, mahiyyəti buranın adi bir yer olmadığına işarə edir: "Dərəyə belə bir adı qoymuşdular ona görə ki, dörd ətraf bilib, görüb inanmışdı ki, bəlkə də kürreyi-ərzin ta Məqribdən Məşriqə qədər hər bucağından adlı-sanlı sehrbazlar gəlib buranı yaşamaq üçün özlərinə məskən seçmişdilər" [3, s.15]. Həmişəbahar, güllü-çiçəkli Sehrbazlar dərəsi qeyri-adiliyi ilə yanaşı, eyni zamanda sirli məkan olması ilə də fərqlənirdi: "Burada nə sirr vardı, nə yoxdu - bilmirdi, amma ürəyinin səsini qulaqlarında eşidirdi. Bir-iki addım atandan sonra gözlərinə dərənin yaşıllığı açılmadımı, açıldı və Xacə İbrahim ağa bir-iki dəqiqə mat-məəttəl və əlbəttə, ürəyindəki xofla bu gözəlliyə kirimişcə baxdı" [3, s.29].

"İlin hər fəslində yaşıl çəmənlik" olaraq təsvir olunan Sehrbazlar dərəsində hər zaman bahar fəsli hakimdir. "Sehrbazlar dərəsindən kənardakı dünya qeyri-sabit, dəyişkən iqlimlə xarakterizə olunur, burada yağışlar, tufanlar, qasırğalar və davamlı şaxtalar hökm sürür. Utopik məkan isə bunların heç birinin özünə keçməsinə imkan vermir" [14, s.131]. İnsanın ruhunu

oxşayan, ona rahatlıq bəxş edən, təbiətin rəngi kimi qəbul olunan yaşıl rəng bütün dərəni ağuşuna almışdır. Paklığı, saflığı təcəssüm etdirən Sehrbazlar dərəsinin yaşıl rənglə xarakterizə olunması əbəs yerə deyildir. Yaşıl rəng eyni zamanda İslam dinində də müqəddəs hesab olunur. Yer üzündə həyatın, axirətdə isə cənnətin rəmzi olan yaşıl rənglə simvolizə olunan Sehrbazlar dərəsi elə cənnətin özüdür. Sehrbazlar dərəsinin yaşıllığı bu məkanı ümidverici, sakitləşdirici, rahatlıq bəxş edən bir yerə çevirir. Dərənin yaşıllığının sakitləşdirici, güvənverici təsiri ilə Xacə İbrahim ağa daha da cəsarətlənir: "....bir sözlə, ətrafda hərəkət edən, amma gözə görünmədən hərəkət edən hər türlü yaşıl canlılıq onu bir az da cəsarətli etdi, artıq bir az daha ürəklə qədəm-qədəm aşağı enməyə başladı" [3, s.29].

Dərənin özü kimi onun sakinləri də qeyri-adi idi. Fövqəl gücə sahib sehrbazların niyə məhz buranı özlərinə məskən seçməsi isə aydın deyildi: "...Nə üçün buranı seçmişdilər - bilən bunu bir adam yox idi, onlar özləri isə bu barədə bir kəlmə dinib danışmırdılar" [3, s.15]. Dərə öz sakinləri üçün böyük əhəmiyyət kəsb edirdi: "Dərədən o tərəfdəki dünya bunların vecinə deyildi. Burada, bu dərənin içində onlar dənizdə balıq kimiydilər" [3, s.64]. Möcüzəvi dərənin qeyri-adi sakinlərini dənizdəki balıqlara bənzədən K. Abdulla məkanın onlar üçün nə qədər önəmli olduğunu çatdırmaq üçün bu müqayisəni aparır. Balıqlar susuz yaşaya bilmədiyi kimi, sehrbazlar da bu dərədən kənarda yaşaya, mövcud ola bilməzdi. Sehrbazlar dərəsində həyat tərzi də tamamilə fərqli idi. "...Bu bir qayda idi: birisinin gətirdiyi qazancdan hamıya pay düşərdi. Geri dönən sehrbaz qazancını başqası ilə bölüşməsə idi olmazdı, yemə-içmələri bunların bir idi, dərd-sərləri bir idi, gəzib dolaşmaları, bir-birilə danışıb-demələri, susub-durmaları bir idi" [3, s.15].

Karvanbaşının dünyasını dəyişmiş atası cəllad Məmmədqulunun ruhu ilə görüşmək, uzun illər onu narahat edən sualları atasına ünvanlamaq, ondan bəzi həqiqətləri öyrənmək istəyi "Sehrbazlar dərəsi" romanının əsas mövzusunu təşkil edir: *"....Bütün cavan ömrü boyu bu görüşün həsrətində olmuşdu. Yuxulardan-yuxulara keçib lal-karlar kimi həmişə maddım-maddım ona baxan atası ilə bu görüş onun bütün sonrakı ömrünü, əlbəttə, dəyişməli idi. Çox şeylər soruşacaqdı ondan, çox sirlər açacaqdı ona, niyə və nə üçünlər çox olmalıydı..."* [3, s.112]. İllərdir ki, öz-özünə verdiyi, cavabını tapa bilmədiyi suallar Karvanbaşının bütün ruhuna hakim kəsilmişdir. Atasının ruhu ilə görüşmək istəyən Karvanbaşı sadiq adamı Xacə İbrahim ağanı bu işi gerçəkləşdirə biləcək şəxsi tapması məqsədi ilə "Sehrbazlar dərəsi"nə göndərir. Xacə İbrahim ağa "Sehrbazlar dərəsi"ndən Səyyah sehrbazı tapır. Səyyah sehrbaz Karvanbaşının atası cəllad Məmmədqulunun ruhunu çağırır və əsas hadisələr bundan sonra baş verir. Karvanbaşı atasının ruhuna onu illərdir rahat yatmağa qoymayan sualları ünvanlayır və o, heç gözləmədiyi cavabları alır. Cəllad Məmmədqulu və Karvanbaşı Allahverdi - ata və oğulun həyat hekayələri təsirli şəkildə təsvir olunur. Romanda Karvanbaşının həyatı, onun uşaqlıq illəri, eyni zamanda atası cəllad Məmmədqulunun həyat hekayəsi bir-birini əvəz edir. Çox maraqlıdır ki, gözlənilmədən dəyişən zaman kəsiyi oxucuda çaşqınlıq yaratmır. Hadisələrin ardıcıllığının pozulması əsərin məzmununa təsir etmir. Adi, gündəlik həyat

hadisələrinin qeyri-adi formada işlənməsi oxucunu nə qədər həyəcanlandırırsa, qəhrəmanların daxili aləminin, hadisələrin qəhrəmanlara təsirinin təsviri bir o qədər təsirləndirir.

Beləliklə, "Sehrbazlar dərəsi" romanını çağdaş postmodern ədəbiyyat nümunəsi kimi təhlil etdikdə ilk növbədə diqqəti cəlb edən məqam hadisələrin xronoloji ardıcıllığının pozulmasıdır. Demək olar ki, bu xüsusiyyət postmodern nəsrin əsas təyinedici əlamətidir. Əsərdə vahid süjet xətti yoxdur. Hadisələr birdən çox əhvalat ətrafında cərəyan edir. Real və irreal dünya vəhdətdə verilir. Kamal Abdulla ustalıqla Qərb postmodernizmini Şərq elementləri ilə zənginləşdirmiş, Azərbaycan postmodern nəsrini tamamilə yeni, orijinal nümunələrlə zənginləşdirmişdir.

Ümumiyyətlə, "Sehrbazlar dərəsi" romanında Şərq ruhu, adət-ənənələri, milli-mənəvi dəyərləri, bütövlükdə Şərq düşüncəsi aydın şəkildə özünü göstərir. Müasir Azərbaycan ədəbiyyatında yeni - postmodern nəsr nümunəsi olan "Sehrbazlar dərəsi" romanı köhnə ilə yeninin mükəmməl şəkildə sintezidir. Qərb postmodernizmin əsas nəzərəçarpan xüsusiyyətlərini özündə əks etdirən roman özünəməxsus keyfiyyətləri ilə tamamilə orijinaldır.

**Nəticə.** Bir sözlə, "Sehrbazlar dərəsi" romanı Qərb postmodernizminin ümumi xüsusiyyətlərini əxz edən Azərbaycan postmodern nəsrinin özünəməxsus elementləri, fəlsəfi-estetik kateqoriyaları ilə orijinal olduğunun əyani göstəricisidir. Kamal Abdulla yaradıcılığının "onurğa sütunu"nu təşkil edən sirr, müəmma, həmçinin intiqam, ölüm kimi mövzular romanın əsasıdır. Yazıçı romanın əsasını təşkil edən bu hadisələri postmodern roman texnikası ilə bədiiləşdirərək oxuculara təqdim edir. Eyni zamanda yazıçı sufi fəlsəfəsini əsərdəki hadisələrlə məharətlə əlaqələndirmişdir. Asif Hacılının fikirlərinə istinadən deyə bilərik ki, "Sehrbazlar dərəsi" romanı sadəcə, sufilərin həyatını deyil, daha geniş anlamda təsəvvüf qavramını və dünya modelini özündə əks etdirən əsərdir. Maraqlıdır ki, əsərdə müxtəlif zaman dilimlərində cərəyan edən hadisələr romanın ümumi mənzərəsində bir-birilə paralellik nümayiş etdirir. Hadisələrin ardıcıllığının pozulması oxucunu qətiyyən narahat etmir. Romanda reallıq və uydurma məfhumları arasındakı sərhəddi müəyyən etmək olduqca çətindir. Ümumiyyətlə, ədibin əsərlərində reallıq və uydurma arasındakı sərhəddi müəyyən etmək oxucunu dilemma - çətin seçim qarşısında qoyur. Yazıçı təxəyyülünün məhsulu olan uydurma həmişəbahar Sehrbazlar dərəsi də bu çətin seçimlərdən biridir. Ədib romanın ana məkanını elə canlı, elə təbii təsvir edir ki, haradasa belə bir yerin mövcudluğuna oxucu şübhə etmir. Kamal Abdulla postmodern poetikanın önəmli kateqoriyalarından olan simulakr və simulasiyadan istifadə etməklə romanın əsas məkanının qeyri-adi, hiperreal təsvirinə nail olur. Ədibin hüdudsuz təxəyyülündə təsəvvür edilə bilən hər bir hadisə, hər bir mətləb öz kontekstində realdır. Reallığa fərqli yanaşması ilə seçilən postmodernist yazıçı modernizmin vahid reallıq prinsipinə əks mövqedə dayanır.

## Ədəbiyyat


1. Abdulla K. (2007), 300 Azərbaycanlı (ədəbi-bədii esselər). Bakı, Mütərcim, 340.
2. Abdulla K. (2013), Oxucumla oynamaram (müsahibə). https://www.aznews.az/news/cemiyyet/39010.html
3. Abdulla K. (2018), Sehrbazlar dərəsi. Bakı, Qanun Nəşriyyatı, 168.
4. Əhmədoğlu A. (2017), Sehrbazlar dərəsi. İç-içə sirlər dünyası. Monoqrafiya, Bakı, Mütərcim, 241.
5. Hacılı A. (2010), Kamal Abdulla: Seçimin morfologiyası. Bakı, Mütərcim, 132 s.
6. İbrahimova A. (2017), Kamal Abdulla: "Yarımçıq əlyazma"ya görə məni "döyənlər", söyənlər, hətta xalq düşməni elan edənlər oldu. https://report.az/edebiyyat/yarimciq-elyazmaya-gore-meni-xalq-dusmeni-elan-edenler-oldu/
7. İsmayılova N. (2019), Kamal Abdulla və postmodernizm. Elmi əsərlər, No.3, 129-136. Naxçıvan Universiteti.
8. Qaragözova E. (2016), XXI əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında arxetipin yeni formaları. Filologiya üzrə fəlsəfə doktoru dissertasiyası, Bakı, 138.
9. Qaragözova E. (2021), Postmodernizm: Məqalələr toplusu. Bakı, Xan nəşriyyatı, 60.
10. Şərifova S. (2015), Çağdaş Azərbaycan postmodern romanı. Bakı, Elm və təhsil, 104.
11. Şərifova S. (2016), Azərbaycan postmodern romanının obrazları. Poetika.izm. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri, No.2, 48-59.
12. Şərifova S. (2018), Klassiklər və müasirlər söz müstəvisində. Bakı, Elm və təhsil, 568.
13. Beşkonak A. (2019), Kamal Abdulla'nın romanlarında yapı ve izlek. Ardahan, 330.
14. Караев С.З. (2019), Мистико-мифическая суть романа Долина кудесников Камала Абдуллы и особенности ее художественного проявления. Закарпатські Філологічні Студії, Том.2, No.10, 128-133.